

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 60 (22.971)

*4 aprel 2018-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Türkiyə Respublikasının ədliyyə naziri Əbdülhəmid Gülün başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb, hüquq-mühafizə orqanları, o cümlədən Ədliyyə nazirlikləri arasında sıx əməkdaşlığın ikitərəfli əlaqələrimizin daha da genişləndirilməsi işinə töhfə verdiyi bildirilib.

Söhbət zamanı Azərbaycan ilə Türkiyə arasında bütün səviyyələrdə qarşılıqlı səfərlərin önəminə toxunularaq bildirilib ki, Türkiyə Respublikasının ədliyyə naziri Əbdülhəmid Gülün Azərbaycana bu səfəri də ölkələrimiz arasında əməkdaşlığın möhkəmləndirilməsi işinə xidmət edəcək.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Ekvador Respublikasının xarici işlər naziri xanım Maria Fernanda Espinosa Qarsesi qəbul edib.

## Müsbət demoqrafiya hərtərəfli inkişafın göstəricisidir

***Son illərdə ölkəmizdə, eləcə də muxtar respublikamızda həyata keçirilən islahatlar bütün sahələrdə müsbət nəticələrin əldə olunmasına şərait yaradıb. Ötən dövrdə, xüsusilə son onillikdə dinamik iqtisadi inkişafın təmin edilməsi və davamlı xarakter alması yoxsulluğun azaldılmasına, əhalinin sosial rifahının yüksəldilməsində davamlı nailiyyətlərin qazanılmasına geniş imkanlar açıb. Bütün bunlarla bərabər, sərbəst bazar iqtisadiyyatı institutlarının yaradılması və sahibkar təşəbbüskarlığına söykənən iqtisadiyyat modelinin bərqərar olması, iqtisadi və sosial infrastrukturun təkmilləşdirilməsi muxtar respublikanın gələcək inkişaf perspektivlərini müəyyən edib.***

Təsadüfi deyil ki, 2017-ci ilin nəticələrinə görə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədri olduğu "Caspian European Club"un ölkədə həyata keçirilən iqtisadi islahatların və sosial siyasətin nəticələrini əks etdirən Azərbaycan Respublikası regionlarının illik investisiya reytinqində Naxçıvan Muxtar Respublikası ən yüksək ümumi bal toplayaraq lider olub.

Təbii ki, muxtar respublikada gedən inkişaf proseslərinin ümumi xronologiyası həyata keçirilən tədbirlərin mahiyyətində insan amilinin dayandığını göstərir. Bu gün regionumuzun ən ucqar yaşayış məntəqələrində belə, əhalinin gündəlik həyatı üçün lazımi bütün kommunikasiyalarla (elektrik enerjisi, qaz, rabitə, internet, bank xidmətləri, kommunal xidmətlər, yollar və sair) təmin olunması, təhsil, səhiyyə, mədəni xidmətlərin əlçatanlığı, məşğulluq məsələlərinin həlli və digər sahələr üzrə həyata keçirilən tədbirlər insan kapitalı potensialının gücləndirilməsi istiqamətində görülən işlərdir. Bütün bunlar dövlətimizin siyasi iradəsini ortaya qoyur. Hazırda insan inkişafının demoqrafik aspektləri əhalinin sağlamlığı, doğum, ömür uzunluğu, yaşlanma və digər tərəflərlə ölçülür. Bu inkişafın əsas meyarlarından biri əhalinin layiqli yaşayış standartları ilə təmin olunmasıdır. Eyni zamanda sosial-iqtisadi inkişaf nəticəsində əldə olunmuş rifah səviyyəsi əmək potensialından səmərəli istifadə edilməklə məşğulluq səviyyəsi, işləyənlərin məhsuldarlığı, əhalinin gəlirləri, iş şəraiti və digər amillər, həmçinin ölkənin hər bir vətəndaşının ehtiyaclarını nəzərə almaqla dövlətin gəlirlərinin bölüşdürülməsi sisteminin səmərəliliyi ilə müəyyən olunur.

Qeyd edək ki, ötən müddət ərzində muxtar respublikada həyata keçirilən sosial-iqtisadi islahatlar, xüsusilə müxtəlif sahələrin inkişafı məqsədilə qəbul edilmiş dövlət proqramları və bu proqramların uğurlu icrası digər sahələr kimi, demoqrafik sahədə də müsbət meyillərin yaranmasına səbəb olub. Demoqrafik sabitliyin qorunmasında əsas amildən biri yuxarıda da qeyd olunduğu kimi, əmək qabiliyyətli əhalinin məşğulluğunun təmin edilməsidir. Muxtar respublikada əhalinin məşğulluğunun təmin edilməsi sahəsində indiyədək bir sıra mühüm tədbirlər həyata keçirilib, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın qəbulu isə bu sahənin inkişafında yeni mərhələnin başlanmasına şərait yaradıb. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə, 2017-ci ildə muxtar respublikada 2437 yeni iş yeri yaradılıb ki, bunun da 2382-si və ya 97,7 faizi daimi iş yerləridir.

Ümumi daxili məhsul istehsalı və bu istehsalın hər bir nəfərə düşən pay həcmi də iqtisadi inkişafın əsas göstəricilərindən hesab olunur. 2017-ci ildə muxtar respublikada 2 milyard 701 milyon 663 min manat dəyərində ümumi daxili məhsul əldə olunub ki, bunun hər bir nəfərə düşən həcmi 2016-cı illə müqayisədə 3,6 faiz artaraq 5 min 990 manat təşkil edib. Bütün bunlar isə muxtar respublikada əhalinin yaşayış səviyyəsinin yüksəldilməsini təmin etməklə yanaşı, demoqrafik proseslərə də müsbət təsir göstərib.

Statistik məlumatlara nəzər salsaq, görərik ki, 1 yanvar 2018-ci il tarixə muxtar respublikada əhalinin sayı 2007-ci ilin sonu ilə müqayisədə 60 min 994 nəfər artaraq 452 min 831 nəfər olub. Əhalinin 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edib. Bir kvadratkilometrə düşən əhalinin sayı isə 82 nəfər təşkil edib ki, bu da 2007-ci ilin sonu ilə müqayisədə 11 nəfər çoxdur. Əhalinin ən sıx məskunlaşdığı yer üzrə isə Naxçıvan şəhəri qeydə alınıb. Belə ki, paytaxt şəhərində bir kvadratkilometrə 485 nəfər düşür.

Bundan əlavə, komitənin məlumatına görə, 2017-ci ildə muxtar respublikada 5681 nəfər doğum qeydə alınıb, doğulanların 2899 nəfərini və ya 51 faizini oğlanlar, 2782 nəfərini və ya 49 faizini isə qızlar təşkil edib. Ümumilikdə, son 10 ildə muxtar respublikada 81 min 807 nəfər uşaq doğulub.

Əhali sağlamlığının və rifahının davamlı yüksəlişi, tibbi xidmətlərin keyfiyyətinin və əhatəliliyinin artırılması ölüm, o cümlədən 1 yaşa qədər ölən uşaqların say göstəricisini aşağı salıb. Əgər 2007-ci ildə ölüm göstəricisi əhalinin hər min nəfər hesabı ilə 5,3 nəfər olmuşdursa, hazırda bu göstərici 4,4 nəfər təşkil edir. Hər min nəfər doğulana hesabı ilə 1 yaşa qədər ölən uşaqların sayı 2007-ci ildə 2,5 nəfər qeydə alındığı halda, 2017-ci ildə bu göstərici 1,6 nəfər olub.

Nəzərə alaq ki, ötən əsrin 90-cı illərindən başlayaraq doğulan uşaqlar hazırda muxtar respublikada gənc əhali qrupunun əsasını təşkil edir. Sağlam əhali artımı isə o zaman qeydə alınır ki, gənc əhali ümumi əhali sayında tələb olunan səviyyəyə çatsın. Yəni yeni doğulanların sayı yaşlanan nəslin sayının önünə keçsin. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə, 1 yanvar 2018-ci il tarixə muxtar respublikada gənclərin sayı 139 min 472 nəfərə çatıb ki, bu da ümumi əhalinin 30,8 faizini təşkil edir. Bu göstərici onun təsdiqidir ki, gənclər muxtar respublikanın ümumi əhali qrupunda mühüm yerə malikdir və əhali dinamikasında əhəmiyyətli rol oynayır. Eyni zamanda bunu da qeyd etməliyik ki, hazırda əhali artımındakı müsbət meyillər əvvəlki illərdən xeyli fərqlənir. Tibbi xidmətin səviyyəsinin ildən-ilə yaxşılaşdırılması, sosial məsələlərin həlli, vətəndaşların yaşayış standartlarının yüksəldilməsi, ümumilikdə, hərtərəfli inkişafın əhali artımına müsbət təsiri isə danılmazdır.

✍ **Səbuhi HƏSƏNOV**

***Ötən illər ərzində tarixi inkişaf yolu keçərək müasir Azərbaycan rayonuna çevrilən Babək sürətli inkişaf və tərəqqi yolundadır. Rayonda aparılan genişmiqyaslı quruculuq tədbirlərinin əhatəsi ilbəil genişlənməkdədir. 2017-ci ili quruculuq və iqtisadi irəliləyişlərlə yola salan, bu il 40 yaşını qeyd edən Babək rayonunda insanlar yeni quruculuq ünvanlarının sevincini yaşayırlar.***

## Quruculuq ünvanlarının sayı artır





Bu ilin mart ayından başlayaraq Babək qəsəbəsindəki dövlət qurumlarının yerləşdiyi dördmərtəbəli inzibati bina əsaslı şəkildə yenidən qurulur. Burada rayon Statistika İdarəsi, Dövlət Sığorta Agentliyi, "Şərqin səhəri" qəzeti redaksiyası, Gənclər və İdman İdarəsi, Məşğulluq Mərkəzi və digər dövlət orqanları üçün iş otaqları ayrılacaq. Yenidənqurma işlərindən sonra rayon Baytarlıq İdarəsi ilə Gigiyena və Epidemiologiya Mərkəzinin də bu binada yerləşdirilməsi nəzərdə tutulub. Binanın zirzəmi qatında həmin mərkəzin laboratoriyaları fəaliyyət göstərəcək.

Məlumat üçün bildirək ki, mart ayından etibarən qəsəbədəki məsciddə də təmir-bərpa işləri aparılır. Layihəyə əsasən ibadət ocağında kişilər və qadınlar üçün zal, eləcə də axund otağı istifadəyə veriləcək. Məscidin həyətində də yaşıllıqlar salınacaq, müasir işıqlandırma sistemləri quraşdırılacaqdır.

* * *



Şahbuz rayonu muxtar respublikamızın dilbər guşələrindən, illərdən bəri çoxsaylı tikinti-quruculuq tədbirləri ilə abadlaşan yurd yerlərindəndir. Günü-gündən müasirləşən Şahbuz şəhərindəki Heydər Əliyev prospektində ötən ilin sonlarında inşasına başlanılan Şahbuz Rayon Mədəniyyət Evi üçün bina yaxın vaxtlarda istifadəyə veriləcək.

Ümumi sahəsi bir hektaradək olan ərazinin 904 kvadratmetr sahəsində inşa olunan binanın tikintisini "Qəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyəti həyata keçirir. Qış fəslində havaların mülayim keçməsi ilə əlaqədar, bütövlükdə, dəmir-qəlib işləri aparılan obyektdə ərkən yazdan işlər daha da sürətləndirilib. Bu barədə iş icraçısı Kənan Hüseynovla söhbətimiz zamanı bildirdi ki, binada hörgü işləri başa çatdırılıb. Hazırda binanın içərisində alçı-suvaq işləri aparılır, kommunikasiya xətləri çəkilir. İş icraçısı onu da vurğuladı ki, son illər yeni tikililərin hər birində olduğu kimi, burada da yerli materiallardan istifadəyə üstünlük verilir.

Qeyd edək ki, 2 mərtəbədən ibarət olacaq binanın birinci mərtəbəsində 278 nəfərlik zal, dekorasiya və hazırlıq otaqları, ikinci mərtəbədə işçilər, həmçinin məşq üçün otaqlar nəzərdə tutulub. Binanın zirzəmi hissəsində isə qazanxana, elektrik otağı və bufet yerləşəcəkdir.

## Dövlət Baytarlıq Xidmətinin əməkdaşları reyd keçiriblər

Əhalinin ət və ət məhsulları ilə təmin edilməsi zamanı həmin məhsulların baytarlıq-sanitariya tələblərinə cavab verməsi mühüm əhəmiyyət kəsb edir. Buna görə də keyfiyyətli və təhlükəsiz heyvandarlıq məhsulları istehsalının davam etdirilməsi bu gün qarşıda duran əsas vəzifələrdəndir. Bu və digər amillər nəzərə alınaraq muxtar respublikada Dövlət Baytarlıq Xidmətinin fəaliyyəti dövrün tələblərinə uyğun qurulub, müasir infrastruktur yaradılıb, maddi-texniki baza möhkəmləndirilib.

Muxtar respublika ərazisində epizootoloji sabitliyin saxlanması və insanların təhlükəli yoluxucu xəstəliklərdən və qida zəhərlənmələrindən qorunması məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin fəaliyyəti son vaxtlar daha da gücləndirilib. Bu istiqamətdə aparılan tədbirlər çərçivəsində xidmətin mütəxəssisləri Naxçıvan şəhərində yerləşən "Cahan" Alış-Veriş Mərkəzindəki və Mərkəzi bazardakı, Şahbuz rayonunun Kolanı və Kiçikoba kəndlərindəki ət kəsim-satış məntəqələrində reyd keçiriblər. Əməkdaşlar əhaliyə göstərilən xidmətin səviyyəsi ilə yaxından tanış olublar.

Aparılan reydlər zamanı heç bir qanunauyğunsuzluq aşkar edilməyib.

Qeyd edək ki, reydlər muxtar respublikanın digər yaşayış məntəqələrində də davam etdiriləcəkdir.

**Xəbərlər şöbəsi**

# Şərur rayonunun sosial-iqtisadi inkişafı



***Muxtar respublikanın hərtərəfli inkişafında xüsusi payı olan Şərur rayonu bu gün özünün inkişaf dövrünü yaşayır. Əhalisinin sayına görə muxtar respublikanın ən böyük yaşayış məntəqəsi olan Şərur rayonunda əldə olunmuş uğurlar, dinamik və davamlı inkişaf əhalinin yaşayış səviyyəsini və sosial həyatını əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır.***

Əhalinin məşğulluğunun təmin edilməsində mühüm yer tutan kənd təsərrüfatının inkişafı istiqamətində qəbul edilmiş dövlət proqramlarının uğurlu icrası və həyata keçirilən digər tədbirlər rayonda bu sahənin inkişafına geniş imkanlar yaratmışdır. Belə ki, 2017-ci ildə Şərur rayonunda 17 min 115 hektar sahədə əkin aparılmışdır ki, bu da 2007-ci ildəki göstəricidən 21,9 faiz çoxdur. Ümumi əkin sahəsinin 3598 hektarını buğda, 546 hektarını arpa, 492 hektarını paxlalılar, 1237 hektarını dən üçün qarğıdalı, 32 hektarını dən üçün günəbaxan, 1064 hektarını kartof, 1814 hektarını tərəvəz, 475 hektarını ərzaq üçün bostan bitkiləri, 7857 hektarını çoxillik otlar təşkil etmişdir. 2017-ci ildə muxtar respublika üzrə ümumi əkin sahəsinin 27,8 faizi Şərur rayonunun payına düşmüşdür.

2017-ci ildə rayonda əkin sahələrindən 14 min 736 ton dənli və dənli-paxlalılar, 10 min 20 ton dən üçün qarğıdalı, 86 ton dən üçün günəbaxan, 15 min 889 ton kartof, 33 min 645,3 ton tərəvəz, 6536 ton bostan məhsulları istehsal edilmişdir. Bundan əlavə, 2017-ci ildə 20 min 940,4 ton meyvə və 1532 ton üzüm istehsal olunmuşdur. 2017-ci ildə muxtar respublika üzrə istehsal olunmuş kartofun 32,4, tərəvəzin 39,7, bostan məhsullarının 17, dən üçün qarğıdalının 79,7, meyvənin isə 39,5 faizi Şərur rayonunun payına düşür. 2007-ci illə müqayisədə dən üçün qarğıdalı istehsalı 4,8 dəfə, günəbaxan istehsalı 32,3, kartof istehsalı 69,4, tərəvəz istehsalı 80,8, bostan məhsulları istehsalı 29,4, meyvə istehsalı 22,8, üzüm istehsalı isə 27,4 faiz artmışdır.

1 yanvar 2018-ci il tarixə Şərur rayonunda iribuynuzluların sayı 35 min 864, xırdabuynuzluların sayı isə 127 min 412 baş olmuşdur ki, bu da 2007-ci ilin sonu ilə müqayisədə 19,8 və 23,6 faiz artmışdır. Mal-qaranın cins tərkibinin yaxşılaşdırılması məqsədilə heyvandarlıq təsərrüfatlarında süni yolla mayalandırılma işinin davamlılığı mal-qaranın baş sayı ilə yanaşı, heyvandarlıq məhsulları istehsalının artımına da müsbət təsir göstərmişdir. Belə ki, 2017-ci ildə rayonda diri çəkidə 8226,7 ton ət, 27 min 698 ton süd, 21 milyon 756 min ədəd yumurta, 189,6 ton yun istehsal edilmişdir. 2007-ci illə müqayisədə ət istehsalı 56,5, süd istehsalı 19,8, yumurta istehsalı 18,3, yun istehsalı isə 18 faiz artmışdır. 2017-ci ildə muxtar respublikada qeydə alınmış diri çəkidə ət istehsalının 31,2, süd istehsalının 33,4, yumurta istehsalının 25,2, yun istehsalının isə 18,3 faizi Şərur rayonunun payına düşmüşdür. Bundan əlavə, rayonda balıqçılığın və arıçılığın inkişafı istiqamətində də mühüm tədbirlər həyata keçirilmiş, məhsul bolluğu yaradılmışdır.

Həyata keçirilən aqrar siyasətin səmərəli nəticəsi kimi 2017-ci ildə Şərur rayonunda 140 milyon 477 min 200 manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur ki, bu da 2007-ci ildəki göstəricidən 3,6 dəfə çoxdur. Muxtar respublikada istehsal olunmuş kənd təsərrüfatı məhsulunun 31 faizi Şərur rayonunun payına düşmüşdür.

***Kənd təsərrüfatı məhsulu istehsalı, min manat***




Şərur rayonunda sənayenin inkişafı istiqamətində istehsal sahələri yaradılmış, yeni məhsul növlərinin istehsalı təmin edilmişdir. Belə ki, 2014-cü ildə rayonda “Arpaçay-1” və “Arpaçay-2” Su Elektrik stansiyalarının istifadəyə verilməsi muxtar respublikanın enerji təhlükəsizliyinin gücləndirilməsi istiqamətində görülən işlərin tərkib hissəsi olaraq mühüm əhəmiyyətə malikdir. Həyata keçirilən tədbirlərin nəticəsi olaraq 2017-ci ildə rayonda 92 milyon 193 min 300 manat dəyərində sənaye məhsulu istehsal olunmuşdur ki, bu da 2007-ci ildəki göstəricidən 4,3 dəfə çoxdur.

***Sənaye məhsulu istehsalı, min manat***




Şərur rayonunda aparılan quruculuq və abadlıq işləri nəticəsində iqtisadi və sosial həyatın bütün sahələrində böyük irəliləyişlərə nail olunmuş, infrastruktur yenilənmişdir. Belə ki, təkcə 2017-ci ildə rayonda əsas kapitala vəsait qoyuluşu 77 milyon 563 min manat olmuşdur ki, bu da 2007-ci ildəki göstəricidən 3 dəfə çoxdur.

***Əsas kapitala vəsait qoyuluşu, min manat***




Vəsait qoyuluşları çərçivəsində 2008-2017-ci illərdə Şərur Rayon Mərkəzi Xəstəxanası, Olimpiya-İdman Kompleksi, Fizika-Riyaziyyat Təmayüllü Lisey olmaqla, 39 təhsil ocağı, o cümlədən 12 min 838 şagird yerlik 34 ümumtəhsil məktəbi, 1 uşaq bağçası, 1 uşaq incəsənət məktəbi, 2 uşaq musiqi məktəbi, 30 səhiyyə, 27 mədəniyyət, 8 idman obyekti, 54 inzibati bina, 450-yə yaxın istehsal, xidmət və digər infrastruktur obyektləri tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir.

Şərur rayonunda əhalinin keyfiyyətli içməli su ilə təmin edilməsi, kanalizasiya sistemlərinin yenidən qurulması istiqamətində Şərur şəhəri və ona yaxın kəndlərdə içməli su və kanalizasiya şəbəkəsinin birinci mərhələsinin tikintisi başa çatdırılmışdır.

Əhalinin həyat səviyyəsinin yaxşılaşması fərdi yaşayış evlərinin tikintisinə də müsbət təsir göstərmişdir. 2017-ci ildə Şərur rayonunda əhalinin şəxsi vəsaiti hesabına, ümumilikdə, 26 min 704 kvadratmetr yaşayış sahəsi istifadəyə verilmişdir ki, bu da 2007-ci ildəki göstəricidən 3,9 dəfə çoxdur. 2017-ci ildə Şərur rayonunda əhalinin şəxsi vəsaiti hesabına istifadəyə verilmiş yaşayış sahəsi muxtar respublika üzrə ümumi göstəricinin 7,1 faizini təşkil etmişdir.



2017-ci ildə rayonda nəqliyyat sektorunda yük daşınması 2007-ci illə müqayisədə 96,6 faiz artaraq 2031,7 min tona, sərnişin daşınması 80,6 faiz artaraq 13 milyon 837 min nəfərə çatmışdır. Bu dövr ərzində yük və sərnişin daşınmasından, bütövlükdə, 5334,5 min manat gəlir əldə edilmişdir ki, bu da 2007-ci ildəki göstəricidən 2,1 dəfə çoxdur.

İnformasiya və rabitə sahəsində yeni texnologiyaların tətbiqi bu sahə üzrə göstərilən xidmətlərin əhatə dairəsini genişləndirmişdir. 2017-ci ildə Şərur rayonunda informasiya və rabitə xidmətlərinin dəyəri 2007-ci illə müqayisədə 2,5 dəfə artaraq 7 milyon 276 min 800 manat olmuşdur ki, bu da muxtar respublika üzrə ümumi rabitə xidmətlərinin 14,6 faizini təşkil edir.

Əhali artımına uyğun olaraq 2008-2017-ci illər ərzində Şərur rayonunda 6056 yeni iş yeri yaradılmışdır ki, bunun da 5354-ü və ya 88,4 faizi daimi iş yeridir. Şərur rayonunda 1 yanvar 2018-ci il tarixə məşğul əhalinin sayı 57,9 min nəfər olmuşdur ki, bu da muxtar respublika üzrə ümumi məşğul əhalinin 24,6 faizini təşkil etmişdir. 2017-ci ildə Şərur rayonunda bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 2007-ci ildəki göstəricini 2,8 dəfə üstələyərək 403,7 manata çatmışdır.

Səmərəli məşğulluq imkanlarının yaradılması əhali gəlirlərinin artmasına və onun alıcılıq qabiliyyətinin yüksəldilməsinə müsbət təsir göstərmişdir. Şərur rayonunda 2017-ci ildə istehlak bazarında əhaliyə 437 milyon 717 min 400 manat dəyərində istehlak malları satılmış və ödənişli xidmətlər göstərilmişdir ki, bu da 2007-ci ildəki müvafiq göstəricidən 6,2 dəfə çoxdur. 2017-ci ildə rayon üzrə satılmış istehlak mallarının və ödənişli xidmətlərin dəyəri muxtar respublika üzrə ümumi göstəricinin 23,1 faizini təşkil etmişdir.

***Pərakəndə əmtəə dövriyyəsi və əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri, min manat***




2017-ci ildə rayonun istehlak bazarında satılmış məhsulların 384 milyon 603 min manatı pərakəndə əmtəə dövriyyəsinin, 53 milyon 114 min 400 manatı isə ödənişli xidmətlərin payına düşmüşdür ki, bu da 2007-ci ildəki müvafiq göstəricilərdən 6,3 və 5,4 dəfə çoxdur.

Bütün sahələrdə qazanılmış uğurlar mühüm göstərici kimi ümumi məhsul istehsalının dinamik və davamlı artımını təmin etmiş, 2007-ci illə müqayisədə ümumi məhsul istehsalı







4,5 dəfə artaraq 2017-ci ildə 545 milyon 407 min manat olmuşdur. 2017-ci ildə muxtar respublikada qeydə alınmış ümumi məhsul istehsalının 15,9 faizi Şərur rayonunun payına düşmüşdür.

Əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi, öz növbəsində, demoqrafik vəziyyətə müsbət təsir göstərmiş, Şərur rayonunda əhalinin sayı 1 yanvar 2018-ci il tarixə 115 min 575 nəfər olmuşdur ki, bu da 2007-ci ilin sonu ilə müqayisədə 14,6 faiz çoxdur.

Aparılan təhlillər deməyə əsas verir ki, muxtar respublikanın digər yaşayış məntəqələri kimi Şərur rayonunda əldə olunmuş uğurların, qazanılmış nailiyyətlərin davamlılığı gələcək inkişafımızın daha parlaq olacağına zəmin yaratmaqdadır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

Ordum varsa, yurdum var

# Əlahiddə Ümumqoşun Ordu muxtar respublikamızın təhlükəsizliyinin qarantıdır

***Tarixdən məlumdur ki, güclü ordusu olan ölkələr hər zaman inkişaf edərək iqtisadi və siyasi qüdrətini artırıb, söz sahibi olub, xarici təhdidlərin qarşısını ala bilib. Yaxın və uzaq tarixi keçmişimiz də sübut edir ki, nizami orduya malik olmamağımız xalqımıza qarşı bir çox soyqırımı faciələrinin törədilməsinə və torpaqlarımızın işğalına səbəb olub.***

Tarixən Azərbaycan torpaqlarına iddialı olan ermənilər ötən əsrin əvvəllərindən başlayaraq mənfur niyyətlərini həyata keçirməyə cəhd göstərmişlər. "Böyük Ermənistan" yaratmağın əsas cinahlarından biri də qədim Naxçıvan torpaqlarını ələ keçirməklə ən böyük türk dövləti olan Türkiyə Respublikası ilə Uzaq Şərqə doğru uzanan türk torpaqları arasında on bir kilometrlik əlaqənin kəsilməsini təmin etmək idi. Ancaq bu məqsədlərinə nail ola bilmədilər. Ötən əsrin 90-cı illərində də bu qədim yurdun mərd insanlarının, xüsusilə dahi şəxsiyyət Heydər Əliyevin gərgin fəaliyyəti nəticəsində ermənilərin bu planı növbəti dəfə iflasa uğradı. Ancaq buna baxmayaraq, muxtar respublikanın böyük yaşayış məntəqələrindən biri olan Sədərək rayonunun və eyniadlı kəndinin, Şərur rayonunun Şahbulaq, Yuxarı Yaycı, Havuş, Babək rayonunun Yuxarı Buzqov, Gərməçataq, eləcə də Şahbuz, Culfa və Ordubad rayonlarının sərhəd kəndlərinin sakinləri mütəmadi olaraq mərmi yağışı altında yaşamağa məhkum idilər. Bu hadisələr həm də elə bir dövrdə baş verirdi ki, ozamankı respublika rəhbərliyi həm Naxçıvana kömək edə bilmirdi, həm də bu köməyin olunmasında faktiki olaraq maraqlı deyildi. Bütün bu hadisələrin fonunda Türk dünyasının böyük oğlu, ulu öndər Heydər Əliyevin Naxçıvanda olması və bu qədim Azərbaycan diyarında qətiyyətli addımlar atması gözlənilən fəlakətlərin qarşısını aldı. Görkəmli dövlət xadiminin bu istiqamətdə həyata keçirdiyi ilk tədbir Naxçıvan Muxtar Respublikasının müdafiəsinin təmin olunması ilə bağlı oldu.

Belə ki, ümummilli liderimiz Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçiləndən cəmi 4 gün sonra – 1991-ci il sentyabrın 7-də muxtar respublikanın müdafiəsinin təşkili ilə bağlı mühüm qərarlar qəbul etmiş, mövcud hərbi dəstə və hissələrə vahid rəhbərliyi həyata keçirən müvafiq dövlət qurumu yaratmışdır. 1992-ci il sentyabrın 15-də isə Naxçıvan Muxtar Respublikası ərazisində ilk milli ordu qurumlarından biri olan 705 saylı əlahiddə gücləndirilmiş motoatıcı briqada təşkil edilmiş, bununla da, Azərbaycanın nizami ordusunun yaradılmasına başlanmışdır. Sonralar ulu öndərin qayğısı ilə 705 saylı motoatıcı briqada 1995-ci ildə motoatıcı diviziyaya çevrilmiş, 1998-ci ildə isə 705 saylı diviziyanın bazasında ordu korpusu yaradılmışdır. Sonrakı dövrlərdə isə ordu quruculuğu prosesi ölkəmizdə prioritet istiqamətlərdən biri seçilərək müasir dövrümüzədək qısa tarixdə böyük yol keçmişdir. Bu sahədə ən böyük dönüş isə 2013-cü ilin dekabrında muxtar respublikada 5-ci Ordu Korpusunun bazasında Əlahiddə Ümumqoşun Ordunun yaradılması olmuşdur. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən atılan bu tarixi addım Naxçıvanın hərbi gücünün artırılmasında yeni bir mərhələyə çevrilmişdir. Qısa müddət ərzində Əlahiddə Ümumqoşun Ordu müxtəlif təyinatlı müasir döyüş texnikaları ilə təmin olunmuş, şəxsi heyətin sayı dəfələrlə artırılmışdır. Bu texnikalara piyada döyüş vasitələrindən tutmuş müasir artilleriya qurğuları və hava hücumundan müdafiə sistemlərinədək müxtəlif növlərdə silahlar daxildir.



Güclü maddi-texniki baza muxtar respublikamızın quru sərhədləri ilə bərabər, hava məkanının da mükəmməl mühafizəsinin təmin edilməsinə şərait yaratmışdır. Eyni zamanda mövcud hərbi hazırlıqlar Əlahiddə Ümumqoşun Ordunun regiondankənar digər hərbi birləşmələrin köməyi olmadan müstəqil şəkildə istənilən döyüş əməliyyatlarının koordinasiyasını həyata keçirməyə imkan vermişdir. Ali Baş Komandan cənab İlham Əliyevin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin hərtərəfli qayğısı sayəsində hər il buradakı hərbi hissələrdə böyük quruculuq tədbirləri həyata keçirilir, zabit və əsgərlər üçün lazımi xidmət şəraiti yaradılır, yeni əsgər yataqxanaları, əsgəri-məişət kompleksləri istifadəyə verilir. Bundan əlavə, hərbi qulluqçuların mənzil-məişət şəraiti yaxşılaşdırılır, onlar yeni mənzillərlə təmin olunurlar. Xidmətdə fərqlənənlərin isə əməyi layiqincə qiymətləndirilərək mükafatlandırılır. Həyata keçirilən tədbirlər sayəsində muxtar respublikada birləşmə və hissələrin döyüş qabiliyyəti və peşəkarlığı artırılmış, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı xeyli yüksəldilmişdir. Ali Məclis Sədrinin mütəmadi olaraq hərbi hissələrə səfər etməsi, şəxsi heyətlə təmasları hərbçilərimizi ruhlandırmaqla yanaşı, xalq-ordu birliyinin nümunəvi gücünü də ortaya qoyur.



Naxçıvanın hərbi gücünün artırılmasının prioritet istiqamət olduğunu bildirən Ali Baş Komandan bu haqda demişdir: ***"Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlənmişdir. Naxçıvan ordusu bu gün güclü ordudur. Naxçıvan ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir. Bu da təbiidir, çünki Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır və belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır. Bu gün bu, belədir. Gələcəkdə Naxçıvanın hərbi potensialının gücləndirilməsi üçün əlavə tədbirlər görüləcəkdir. Naxçıvanın hərbi potensialı elə olmalıdır ki, istənilən təcavüzə tutarlı, layiqli cavab verə bilsin. Bu gün bu artıq reallıqdır. Gələcək illərdə görüləcək əlavə tədbirlər hesabına biz Naxçıvanda daha da böyük hərbi potensial yaradacağıq. Buna imkan vardır".***

Qeyd edək ki, ötən 5 il ərzində Əlahiddə Ümumqoşun Ordunun hərbi potensialı daha da gücləndirilmiş, hərbi birləşmələrimiz xarici və yerli müdafiə sənayesinin ən müasir hərbi texnikaları ilə təmin edilmişdir. Son dövrlərdə Silahlı Qüvvələrimizin muxtar respublikadakı hərbi hissələrinin Türkiyə Silahlı Qüvvələrinin müxtəlif qoşun növləri ilə birgə təlimlərə cəlb olunması, təlimlər zamanı birləşmələrin yüksək döyüş qabiliyyəti nümayiş etdirməsi, eyni zamanda iki qardaş dövlətin hərbi birliklərinin döyüşdə birgə koordinasiyasını təşkil etmək baxımından əhəmiyyətli rol oynamışdır.



Əlahiddə Ümumqoşun Ordu 2017-ci ildə hazırlıq planına əsasən görülən işlərin nəticələrinə, döyüş və ictimai-siyasi hazırlıqda əldə olunmuş nailiyyətlərə görə Azərbaycan Respublikası Silahlı Qüvvələri üzrə birinci yerə layiq görülmüşdür. Bunu da xatırladaq ki, ötən il oktyabrın 18-də muxtar respublikada ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümü münasibətilə keçirilən hərbi parad da ordumuzun gücünü hər kəsə nümayiş etdirmişdir. Həmin ərəfədə xarici media orqanlarının Naxçıvandakı hərbi parad haqqında xəbərlərə böyük yer verməsi də ordunun qazandığı nüfuzdan xəbər verirdi.

Ümumiyyətlə, Azərbaycan Silahlı Qüvvələrinin, eləcə də muxtar respublikada yerləşən hərbi birliklərin döyüş arsenalının gücləndirilməsi, orduda şəxsi heyətin vətənpərvərlik ruhunun yüksək səviyyədə olması ən çox diqqət mərkəzində olan məsələlərdəndir. İki il bundan əvvəl – 2016-cı ilin aprel ayında baş vermiş döyüşlərdə ordumuzun cəmi 4 gündə qazandığı nailiyyətlər xalqımızın orduya və işğal altında olan torpaqlarımızın qısa bir müddətdə azad olunmasına inamı daha da artırıb. Qeyd edək ki, tarixə dördgünlük müharibə kimi düşən həmin aprel döyüşləri ordumuza öz gücünü göstərməyə şərait yaradıb. Halbuki həmin döyüşlərə hərbi birləşmələrimizin çox az bir hissəsi cəlb olunmuşdu. Nəticədə, döyüşçülərimizin gücü qarşısında aciz qalan düşmən sürətlə geri çəkilib və məcburiyyət qarşısında qalan erməni rəhbərliyi acizanə şəkildə atəşkəsin təmin edilməsi üçün müxtəlif qurumlara müraciət etməyə məcbur olmuşdu. Dörd gün ərzində əsgərlərimiz 2000 hektar ərazini, strateji əhəmiyyət kəsb edən yüksəklikləri geri alıb və cəbhəboyu ərazilərə nəzarət etmək imkanı qazanıb. Bu döyüş ermənilərin indiyədək "yenilməz erməni ordusu" haqqında yaratdıqları 20 illik mifi darmadağın etdi.

*Bu gün ölkəmizin və muxtar respublikamızın müdafiəsinin daha da gücləndirilməsində, təhlükəsizliyimizin yüksək səviyyədə qorunmasında yeni bir tarixi dövrə qədəm qoyulub. Ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər onu göstərir ki, Əlahiddə Ümumqoşun Ordu bu gün qədim Naxçıvanın keşiyində inamla dayanır, muxtar respublikamızın müdafiəsində ona həvalə edilmiş missiyanı şərəflə yerinə yetirir.*

**Səbuhi HƏSƏNOV**

# Şəhidlik elə bir zirvədir ki...

Zaman-zaman əsrlərin sınağına tab gətirmiş Azərbaycan xalqı bu dəfə də sınaqdan mərd-mərdanə çıxdı. İki il bundan öncə – 2016-cı ilin bir qaranlıq yaz gecəsinin sabahı Azərbaycanın igid oğullarının Günəş kimi parlayan qəhrəmanlıqlarının şəfəqləri ilə açıldı. Həmin ilin aprelin ilk günləri Azərbaycan əsgəri dilində Vətən nəğməsi, könlündə Qarabağ yanğısı, ürəyində düşmənə nifrət hissiylə döyüşə atıldı. Həmin günlərdə işğal altındakı torpaqlarımızda 20 ildən artıq bir müddətdə qövr edən bir yaranın qaysağı qopdu. Elə həmin günlərdə qəhrəman Azərbaycan əsgəri öz şücaətini göstərdi, nəyə qadir olduğunu sübuta yetirdi. Ordumuzun qüdrəti qarşısında tab gətirməyən düşmən uzun illərdir, möhkəmləndirdiyi səngərlərini, döyüş postlarını buraxıb qaçdı, yüzlərlə erməni silahlısı məhv edildi. Bu qısamüddətli döyüş zamanı əsgərlərimiz dillərə dastan olacaq qəhrəmanlıq göstərdilər, Qarabağın heç bir zaman düşmənə güzəştə gedilməyəcəyini sübuta yetirdilər.



*Qabil Orucəliyev*
*Rəssam: Cavid İsmayılov*

Ordumuzun bu döyüşlərdə qazandığı şanlı zəfərdən sonra hər şey gün kimi aydın oldu, aprel savaşında qazanılan qələbə qəhrəmanlıq tariximizə qızıl hərflərlə yazıldı. Dörd gün ərzində gedən qanlı döyüşlərdə əldə etdiyimiz qələbə xalqımızda böyük ruh yüksəkliyi yaratdı. Silahlı Qüvvələrimiz düşmənə və onun havadarlarına öz gücünü göstərdi. O gecə cəbhədən gələn Talış kəndinin və Lələtəpə yüksəkliyinin düşməndən azad edilməsi xəbəri hər bir azərbaycanlının sevincinə səbəb oldu.

Bu döyüşlərdə Naxçıvan torpağı da iki şəhid verdi. Mayor Rasim Məmmədov və leytenant Qabil Orucəliyev şəhidlik zirvəsinə yüksəldilər, Vətənin hər qarışının onlar üçün əziz və müqəddəs olduğunu bir daha sübuta yetirdilər.

...Döyüşün ilk günü Qabil və yoldaşları 15-16 kilometr məsafəyədək düşmənin içərilərinə doğru irəliləyiblər. Erməni postunu tutduqdan və oradakı erməniləri zərərsizləşdirdikdən sonra Qabil və yoldaşları Madagiz kəndində mühasirəyə düşüblər, onlar son nəmilərinədək düşmənlə vuruşub və qəhrəmancasına şəhid olublar. Döyüş zamanı Qabilgil çox sayda düşmən zabit və əsgərini zərərsizləşdiriblər. Həmin dövrdə Milli Qəhrəmanımız Mübariz İbrahimovdan sonra erməni mətbuatının ən çox Qabildən bəhs etməsi onu göstərirdi ki, o, düşmənə sarsıdıcı zərbələr vurub. Döyüş zamanı göstərdiyi qəhrəmanlığa görə Qabil Orucəliyev Azərbaycan Respublikası Müdafiə Nazirliyinin 2016-cı il 19 aprel tarixli əmri ilə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli döş nişanı ilə təltif edilib.

...Qabil hələ üç gün bundan öncə övladının dünyaya gəlməsi xəbərini elə cəbhədə olarkən dostları ilə də paylaşmışdı. Həmin gecə hamı ona "Övladın atalı-analı böyüsün", – deyib, gözaydınlığı vermişdi. Ancaq xain düşmənin törətdiyi bu münaqişə ucbatından körpəsinin səsini eşidə bilməyən bir çox atalar kimi, övladını qucağına almaq ona da nəsib olmadı. O, öz balasına toxuna, onun üzünü görə bilməsə də, ona əbədi bir adı miras qoyub getdi. Dünyada heç bir ləl-cavahiratla əvəz oluna bilməyəcək bir ad, şəhid övladı adı yazıldı bu körpənin taleyinə. Qabil tək bir ailənin, bir kəndin, bir elin-obanın yox, bütün Azərbaycanın fəxri oldu.

...Qabilin ölümsüzlüyünün ikinci ildönümündə məzarı üzərinə gələnlər arasında ailəsi və qan-qadanın, müharibənin nə demək olduğunu dərk edə bilməyən, igid atasının adını daşıyan ikiyaşlı Qabil də var. O, məsum, sakit baxışlarla atasının məzarının ətrafına toplaşan insanlara, başı üstündə qürurla dalğalanan Azərbaycan bayrağına baxır. İllər keçəcək, balaca Qabil böyüyüb atasına, Vətəninə layiq gənc olacaq...

Şəhid məzarları bu gün hər bir gəncimiz üçün and yerinə çevrilib. Gənclərimiz hərbi xidmətə yollanmazdan öncə bu məzarlar üzərində dualar oxuyub, müqəddəs Vətən torpaqlarının hər qarışını qorumaq üçün and içirlər. Qabil Orucəliyevin də döyüş yolu hər bir Azərbaycan gənci üçün örnəkdir. Bu gün fəxrlə deyə bilərik ki, Vətən üçün şəhidliyi könüllü qəbul edən, bununla fəxr edən gənclərimiz var. Qabil Orucəliyev kimi qəhrəmanlar yetirən xalq heç vaxt məğlub ola bilməz.

Ruhun şad olsun qəhrəman, rahat uyu, uğrunda canını verdiyin o Vətən torpağı üzərində artıq Azərbaycan əsgəri keşik çəkir. Qarabağın azad olması yolunda Cocuq Mərcanlıdan, Talış kəndindən başlayan zəfər savaşımız torpaqlarımız azad olana kimi davam edəcək. Qabil kimi Vətən təəssübkeşləri "Ən böyük sevgi Vətən sevgisidir, bu məhəbbət fövqəladə vəziyyətlərdə ölüm-dirim çağlarında daha qabarıq aşkara çıxır" fikrini döyüşlərdə şücaət göstərərək, şəhidlik zirvəsinə yüksələrək bir daha sübut etdilər.

**Ramiyyə ƏKBƏROVA**



# GƏNCLƏR PAYTAXTISAN

*Hara baxsan gülür gənclər, cavanlar,*
*Nə xoşbəxtdir gənclikdən zövq alanlar.*
*Hər baxışda qucaq dolu sevinc var,*
*Könül dünyamızın tacı, taxtısan,*
*Naxçıvanım, Canməkanım,*
*Sən Gənclər Paytaxtısan.*

*Qoca Şərqin cavanlaşan qocası,*
*Yer üzündə Tanrının nur xonçası.*
*Dörd bir yanın ətirli gül qönçəsi,*
*Həyatımın şan ili, şan vaxtısan,*
*Naxçıvanım, Canməkanım,*
*Sən Gənclər Paytaxtısan.*

*Tarixinə naxış vurur gənclərin,*
*Hər tərəfdə büsat qurur gənclərin.*
*Uğurlarla qürur duyur gənclərin,*
*Bu gənclərin xoş taleyi, baxtısan,*
*Naxçıvanım, Canməkanım,*
*Sən Gənclər Paytaxtısan.*

**Elxan YURDOĞLU**

## Qədim əlyazma və kitabların təqdimatı olub



Aprelin 3-də Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən qədim tarixə malik əlyazma və kitablar AMEA Naxçıvan Bölməsinin Əlyazmalar Fonduna hədiyyə olunub.

Qeyd edək ki, qədim əlyazma və kitablar Nehrəm kənd sakini, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Akif Hacıyev, Ordubad rayon sakinləri Züleyxa Cəfərova, Nazilə Bağırova, Şəbnəm Rüstəmli tərəfindən Mədəniyyət və Turizm Nazirliyinə təqdim edilib.

Bu münasibətlə keçirilən tədbiri giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açaraq deyib ki, bölmə elmi tədqiqatlarla yanaşı, maddi-mədəniyyət nümunələrinin aşkarlanması ilə də məşğul olur. 2005-ci ildə yaradılan Əlyazmalar Fondunda bu gün 400-dən çox qədim əlyazma və kitab toplanıb. Bu əlyazmalar Azərbaycan, ərəb, türk, fars və digər dillərdə müxtəlif elm sahələrinə aiddir.

Akademik bildirib ki, 2016-cı ildən başlayaraq muxtar respublikanın Mədəniyyət və Turizm Nazirliyi tərəfindən Əlyazmalar Fonduna bir neçə dəfə qədim əlyazma və kitablar təqdim edilib. İsmayıl Hacıyev qədim əlyazma və kitabları toplayıb Əlyazmalar Fonduna təqdim edənlərə minnətdarlığını bildirib.

Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova çıxışında qeyd edib ki, 2017-ci ildə muxtar respublikanın muzeylərinə 1340 eksponat daxil olub. Bu ilin üç ayında isə muzeylərimiz 400-dən çox eksponatla zənginləşib.

Vurğulanıb ki, milli mədəniyyətimizin və elm tariximizin inkişaf prosesi haqqında tam təsəvvür yaradılmasında mühüm rolu olan qədim əlyazma və kitabların toplanması həm də kitab mədəniyyəti tarixinin zəngin fondunun yaradılması deməkdir. Bu kitablar içərisində İslam mədəniyyəti və elmi ilə bağlı olanlar xüsusi maraq doğurur.

Nazir çıxışının sonunda qədim diyarımızda mədəniyyətə, elmə göstərdiyi diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinə tədbir iştirakçıları adından minnətdarlıq edib.

Tədbirdə AMEA Naxçıvan Bölməsinin Əlyazmalar Fondunun direktoru, filologiya elmləri doktoru Fərman Xəlilov, kitabları muzeyə təqdim edənlər – Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Akif Hacıyev, Ordubad rayon sakini Züleyxa Cəfərova çıxış edərək muxtar respublikamızda mədəniyyətə və elmə göstərilən diqqət və qayğıdan danışıblar.

Sonda AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fonduna hədiyyə edilən kitablara baxış olub.

**Əli RZAYEV**

## İcbari tibbi sığorta barədə maarifləndirici tədbir



*Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında tibb işçilərinin maarifləndirilməsi məqsədilə tədbir keçirib.*

Agentliyin direktoru Samiq Sadıxov icbari tibbi sığortanın əhəmiyyəti barədə danışıb. Qeyd olunub ki, muxtar respublikamızda icbari tibbi sığortanın mərhələli qaydada həyata keçirilməsi nəzərdə tutulur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 3 may tarixli "Sədərək rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər haqqında" Fərmanı əhaliyə göstərilən dövlət qayğısının bariz ifadəsidir. Ali Məclis Sədrinin tapşırığı ilə Sədərək Rayon Mərkəzi Xəstəxanasının maddi-texniki bazasının daha da gücləndirilməsi üçün ötən il ən müasir tibbi avadanlıqlar, 23 kompüter quraşdırılıb, rayon əhalisi qeydiyyata alınıb, vahid məlumat bazası və server otağı yaradılıb. Bu da imkan verəcəkdir ki, hər bir həkim müayinə etdiyi xəstə haqqında məlumatı sistemdə yerləşdirə bilsin.

Diqqətə çatdırılıb ki, bu il yanvarın 25-də səhiyyə müəssisəsinə baxış keçirilib və Ali Məclis Sədrinin tapşırığı ilə icbari tibbi sığortanın tətbiqinə başlanılıb. İcbari tibbi sığortanın tətbiqi səhiyyə işçilərinin əməkhaqlarına da təsir edib. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamına əsasən Sədərək Rayon Mərkəzi Xəstəxanasına publik hüquqi şəxs statusu verilib və xəstəxana işçilərinin aylıq əməkhaqları 2018-ci il fevralın 1-dən 50 faiz artırılıb.

Tədbirdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi İcbari tibbi sığorta işinin təşkili şöbəsinin əməkdaşı Vüsal Məmmədov, agentliyin Səhiyyə və sosial-iqtisadi təhlil şöbəsinin əməkdaşı Leyli Həsənova, Maliyyə və təsərrüfat sektorunun əməkdaşı Təbriz Bayramov və "Nəqşicahan Med" MMC-nin əməkdaşı Tural Rəhimov çıxış ediblər.

Sonda suallar cavablandırılıb.

**Hüseyn ƏSGƏROV**

*İdman*

## Cüdoçumuz qızıl medal qazanıb



*Dağıstan Respublikasının Dərbənd şəhərində Rusiya Federasiyasının əməkdar məşqçisi Sadiq Abdulovun xatirəsinə həsr olunmuş cüdo üzrə beynəlxalq turnir keçirilib.*

Turnirdə Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının yetirməsi də iştirak edib. 2003-2005-ci illər təvəllüdlü idmançılar arasında keçirilən yarışda federasiyanın yetirməsi Əli Əlizadə tatami üzərinə çıxıb. 60 kiloqram çəki dərəcəsində mübarizə aparan cüdoçumuz bütün görüşləri qələbə ilə başa vuraraq, turnirin qalibi adını qazanıb.

Sonda qalib idmançılara diplom, medal və kubok təqdim edilib.

## Boksçumuz Avropa çempionatında uğurla çıxış edib

***Rumıniyanın Tırqu-Jiu şəhərində keçirilən 22 yaşadək boksçular arasında Avropa çempionatı yekunlaşıb. Azərbaycan millisi yarışı 1 gümüş və 1 bürünc medalla başa vurub.***

Millimizin heyətində Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının yetirməsi Tayfur Əliyev də olub. Dəri əlcək sahibimiz qitə birinciliyində 56 kiloqram çəki dərəcəsində rinqə çıxıb.

İlk görüşdə Ukrayna boksçusunu məğlub edən Tayfur Əliyev növbəti mərhələdə İtaliya təmsilçisini mübarizədən kənarlaşdırıb. 1/4 final mərhələsində isə boksçumuz almaniyalı Hamzet Şadalovu 3:2 hesabı ilə məğlub edib. Finala gedən yolda Tayfur Əliyevin rəqibi ispaniyalı Xose Giles Brotons olub. Rəqibini 4:1 hesabı ilə məğlub edən dəri əlcək sahibimiz finala yüksəlib. Həlledici qarşılaşmada idmançımız meydan sahibi Robert Jitaru ilə qarşılaşıb və məğlub olub.

Sonda idmançımıza qitə birinciliyinin gümüş medalı və diplomu təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

## Hərbi qulluqçular arasında birincilik keçirilib

***2018-ci ilin döyüş hazırlığı planına əsasən Naxçıvan Qarnizonu üzrə hərbi qulluqçular arasında cüdo, sərbəst və yunan-Roma güləş birincilikləri keçirilib.***

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Güləş Federasiyası və Əlahiddə Ümumqoşun Ordunun birgə təşkil etdikləri birinciliklərdə 14 komandadan, ümumilikdə, 165 idmançı döşək üzərində öz gücünü sınayıb.

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində təşkil olunan yarışlarda idmançılar cüdo birinciliyində 7 çəki dərəcəsində, yunan-Roma və sərbəst güləş birinciliklərinin hər birində isə 8 çəki dərəcəsində mübarizə apardılar. Güclü idmançı və komandaların müəyyən edilməsi məqsədilə keçirilən yarışlarda hərbi qulluqçularla yanaşı, Heydər Əliyev adına Hərbi Liseyin kursantları da iştirak ediblər.

Həm komanda hesabı, həm də şəxsi birinciliyin qalibləri müəyyənləşib.

Qalib idmançı və komandalar Əlahiddə Ümumqoşun Ordu komandanlığı tərəfindən mükafatlandırılıb.

**Nəriman NƏCƏFOV**

***İtmişdir***

Babək rayonunun Nəzərabad kəndində yaşamış Məhərrəmov Şahin Sevindik oğlunun adına olan JN-238[M] nömrəli 10311068 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Gülcamal Tahirova**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Ədəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1490. Sifariş № 256**